

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 99 (21.251)

20 may 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika



Mayın 19-da yeni Beynəlxalq Avtovağzal ərazisindən Bakı dairəvi yolunu birləşdirən körpünün və Stend Atıcılığı Kompleksinə gedən yolun açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısına məlumat verildi ki, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun "Avtovağzal dairəsi" adlanan ərazisinin Bakı dairəvi-1 avtomobil yoluna birləşdirilməsi məqsədilə inşa edilən yeni yolda təmir-tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Ümumi uzunluğu 1070 metr olan yolun körpüyə qədər hissəsinin eni 22 metrdir və 4 hərəkət zolağından ibarətdir. On beş aşırımdan ibarət körpünün uzunluğu 451 metr, eni isə 13 metrdir.

Dövlətimizin başçısına Bakı-Sumqayıt yolunun 9-cu kilometrində inşa olunan 5 körpü və Sumqayıt-Bakı istiqamətində yan yolun genişləndirilməsi işləri barədə də məlumat verildi.

Ərazidə inşa olunan 5 körpünün ümumi uzunluğu 400 metrdir. Burada 2350 metr uzunluğunda yan yollar genişləndirilib və yolun eni 15 metrə çatdırılıb. Bütün bunlar Bakı-Sumqayıt yolunda tıxac probleminin aradan qaldırılmasına və əhalinin rahatlığının təmin edilməsinə mühüm töhfə verəcək.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Bakı Olimpiya Stadionu ətrafında inşa olunan yol-nəqliyyat infrastrukturunun açılışında iştirak edib.

## Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasında dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin əsasında Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin layihəsini, strukturu və işçilərin say tərkibi barədə təkliflərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.2. bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 may 2015-ci il*

*Muxtar respublikada yeni texnologiyaların tətbiqi və abonentlərə keyfiyyətli rabitə xidmətinin göstərilməsi diqqət mərkəzində saxlanılır.*

## Əhaliyə keyfiyyətli rabitə xidməti göstərilir

Yaşayış məntəqələrində yeni poçt şöbələrinin istifadəyə verilməsi, mənzillərin telefonlaşdırılması, fiber-optik xətlərin çəkilməsi və yüksəksürətli internetə çıxış imkanının yaradılması əhalinin keyfiyyətli rabitə xidmətindən və yeni texnologiyaların imkanlarından səmərəli istifadəsinə şərait yaratmışdır. İstər Naxçıvan şəhərində, istərsə də rayon mərkəzlərində bu sahədə yaradılan müasir infrastruktur isə qarşıya qoyulan vəzifələrin vaxtında yerinə yetirilməsinə imkan verir.

Aprel ayında Şahbuz rayonunun Gömür kənd poçt bölməsi yeni tikilən kənd mərkəzinə köçürülmüş, lazımi avadanlıqlarla təchiz olunmuşdur. Muxtar respublika üzrə, ümumilikdə, 250 ədəd yeni telefon nömrəsi istismara verilmiş, "Evədək optika" layihəsi üzrə ay ərzində 10 fərdi mənzilə optik kabel çəkilmişdir. Həmçinin bu dövrdə 391 abunəçi genişzolaqlı internetlə təmin olunmuş, ümumilikdə, 18 min 560 metr məsafədə yeraltı fiber-optik kabel xəttinin tikintisi həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq distant təhsil sisteminə xidmət edən serverin arabağlantısı 1 Gqbt/saniyəyə çatdırılmışdır. Bu da təhsil müəssisələri arasında, eləcə də muzeylərlə əlaqələrin daha səmərəli təşkilinə imkan verəcəkdir. Bundan əlavə, Kəngərli rayonundakı şahmat məktəbinə 10 ədəd, Kəngərli Rayon Təhsil Şöbəsinə 4 ədəd kompüter qoyularaq daxili şəbəkə qurulmuş və genişzolaqlı internetlə təmin olunmuşdur.

Elektrik və qazdan istifadə haqlarının poçt şöbələri vasitəsilə ödənilməsi əhalinin rahatlığının təmin olunmasında başlıca şərtdir. Artıq muxtar respublikada bu təcrübədən geniş istifadə olunur. Ötən ay poçt şöbələrində elektrik enerjisindən istifadəyə görə 441 min 772 manat, qazdan istifadəyə görə 828 min 915 manat, mobil cihazların qeydiyyatı üzrə 11 min 255 manat vəsait yığılmışdır.

Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində kompüter kurslarına aprel ayında 29 dinləyici qəbul edilmiş və əlavə 2 qrup yaradılmışdır. Hazırda mərkəzdə, ümumilikdə, 11 qrup fəaliyyət göstərir.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

## Cəmşid Naxçıvanskinin ev-muzeyində açıq dərs keçilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin ev-muzeyində açıq dərs keçilib. Açıq dərsdə Naxçıvan şəhərindəki 7 və 8 nömrəli tam orta məktəblərin, həmçinin Naxçıvan Qarnizonunun tam orta məktəbinin bir qrup şagirdi iştirak edib.*

Muzeyin əməkdaşı Zemfira Adıgözəlova çıxış edərək bildirib ki, Cəmşid xan Naxçıvanski Azərbaycanın hərb tarixində özünəməxsus yeri olan, iki dəfə haqqında ölüm hökmü çıxarılan və böyük mənəvi sarsıntılara məruz qalan, amma bütün bunların qarşısında sınmayan bir şəxsiyyət idi. Buna görə də Kəngərli tayfasının onlarla görkəmli insanı arasında Cəmşid xan Naxçıvanskinin həyatı və fəaliyyəti maraqlı məqamları ilə seçilir.

General Cəmşid Naxçıvanskinin adı hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Onun keçdiyi ömür yolu bugünkü və gələcək nəsillərə örnəkdir.

Bildirilib ki, Cəmşid Naxçıvanski Azərbaycan Xalq Cümhuriyyətinin hərbi təşkilatlanma işində yaxından iştirak edib, onun təşəbbüsü ilə bir sıra mühüm addımlar atılıb, xüsusilə silahlanma və təşkilatlanma sahəsində mühüm yeniliklər əldə edilib.

Cəmşid Naxçıvanski sovet hökuməti dövründə müxtəlif kurslara göndərilməsinə, rütbələr almasına, mükafatlandırılmasına baxmayaraq, həm də bir zamanlar Azərbaycan Xalq Cümhuriyyətinin zabiti olmuş hərbçi kimi nəzarətdə idi. Həmin illərdə etdiyi xidmətlərə görə onu çox sorğu-suala çəkirdilər. Ona görə də o, Zaqafqaziya Baş Siyasi İdarəsinin xüsusi şöbəsi tərəfindən 22 fevral 1931-ci ildə Tiflis şəhərində əksinqilabi millətçi təşkilatın üzvü kimi həbs edilib.

Həbsdən azad edildikdən sonra orduda fəaliyyətə başlayan Cəmşid Naxçıvanski az bir müddətdən sonra ailəsi ilə Moskva şəhərinə gedib və M.Frunze adına Hərbi Akademiyaya daxil olub. Kursu bitirdikdən sonra onu akademiyanın əsas fakültəsinin ikinci kursunun rəisi vəzifəsində saxlayıblar.

Cəmşid Naxçıvanski 12 avqust 1938-ci ildə yenidən həbs edilib və cəmi bircə dəfə dindirilib.

Elə həmin dindirilmədən sonra istintaqın bitdiyi ona elan edilib. 12 avqust 1938-ci ildə onun barəsində ittihamnamə hazırlanıb. 26 avqust 1938-ci ildə SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası məhkəmə iclasına başlayıb. Bağlı məhkəmə iclasında Cəmşid Naxçıvanski son söz deməkdən imtina edib. 15 dəqiqədən sonra məhkəmə Cəmşid Naxçıvanski barəsində ölüm hökmü çıxarıb və beləliklə də, məhkəmə öz işini bitmiş hesab edib.

Elə həmin gün Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri olan Cəmşid Naxçıvanski Moskva şəhərində güllələnib.

Azərbaycanın daha bir igid övladı sovet rejiminin qanlı illərinin qurbanı oldu. Amma tarix və xalqımız bu insanları heç vaxt unutmur, xalqımızın mübarizə və əzəmət əzminin qoruyucuları olmuş bu şəxsiyyətlərin həyatı və fəaliyyəti yaddaşlara həkk olunur. 22 dekabr 1956-cı ildə Cəmşid Naxçıvanskiyə bəraət verilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 2 aprel tarixli və "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 aprel 2015-ci il tarixli sərəncamları bu görkəmli şəxsiyyətin, hərb xadiminin həyat və fəaliyyətinin öyrənilməsində növbəti addımdır.

Sonra məktəblilər sərkərdənin ev-muzeyi ilə tanış olublar.

Qeyd edək ki, Cəmşid Naxçıvanskinin ev-muzeyi 1982-ci ildə yaradılıb. Hazırda muzeydə 6 min eksponat saxlanılır və onlardan 800-ü ekspozisiyada nümayiş etdirilir.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Beynəlxalq Hava Limanında uçuşların təhlükəsizliyi və sərnişinlərin rahatlığı təmin olunur

*Muxtar respublikanın hava nəqliyyatı sistemi müasir inkişaf mərhələsini yaşayır. Son illər bu sahə üzrə yeni infrastrukturun yaradılması xidmətin keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdur.*

Bu ilin aprel ayında yerli hava xətti ilə 18 min 369 sərnişin, 231 min 508 kiloqram baqaj, 84 min 435 kiloqram yük və 1766 kiloqram poçt, eləcə də Naxçıvan-Moskva istiqaməti üzrə 258 sərnişin, 4 min 137 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 413 sərnişin və 4 min 421 kiloqram baqaj daşınmışdır.

Uçuşların vaxtında və təhlükəsiz təşkili məqsədilə hava limanının bütün strukturları qarşıda duran vəzifələri təlimata uyğun həyata keçirmişdir. Belə ki, uçuş-enmə zolağında və perronda cari təmir işləri aparılmış, hava gəmilərinə, xidməti avtomobillərə və bütün növ avadanlıqlara texniki qulluq göstərilmişdir. Texniki yoxlamalar zamanı qarşıya çıxan nasazlıqlar aradan qaldırılmış, sıradan çıxmış hissə və avadanlıqlar təmir və ya yenisi ilə əvəz olunmuşdur.

Hava limanının xidməti ərazisindəki transformatorlar, elektrik və su xətləri təmir olunmuş, yeni nasoslar quraşdırılmışdır. Aerovağzal binasındakı tərəzi, konveyer və digər texnoloji avadanlıqların fəaliyyətinə müntəzəm nəzarət edilmiş, 1 müşahidə kamerası təmir olunmuş, yeni lift və eskalatorların quraşdırılması işi tamamlanmışdır. Hazırda aerovağzal binasında yenidənqurma işləri davam etdirilir.

Hava limanında kadr potensialının və işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi işi də diqqət mərkəzində saxlanılır. Aprel ayında işçilərin biliklərinin yoxlanması üçün imtahan keçirilmişdir.

**Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti**

***Dünyanın istənilən ordusunun döyüş qabiliyyətini, gücünü iki halda müəyyənləşdirmək olar: birincisi, genişmiqyaslı hərbi təlimlərdə, ikincisi isə müharibədə. Son dövrlər Azərbaycan Silahlı Qüvvələri və onun tərkib hissəsi olan Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu istər hərbi təlimlərdə, istərsə də təcavüzkar düşmənin təxribatlarına qarşı ildırımsürətli cavab zərbələrində öz gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. Ötən günlərdə Naxçıvan Muxtar Respublikasında keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimləri də ordumuzun yüksək döyüş hazırlığına malik olduğunu bir daha sübut etdi.***

# Əlahiddə Ümumqoşun Ordusu yüksək döyüş hazırlığına malikdir

## *Muxtar respublikada keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimləri bunu bir daha sübut etdi*



Əgər Əlahiddə Ümumqoşun Ordusu özünün yüksək döyüş qabiliyyəti, nizam-intizamı və silah-sursat təchizatı ilə NATO kimi qüdrətli hərbi-siyasi təşkilatda dünyanın supergücü olan Amerika Birləşmiş Ştatlarından sonra ikinci yerdə qərarlaşan, Avropada isə analoqu olmayan Türkiyə Silahlı Qüvvələri ilə birgə keçirdiyi hərbi təlimlərdə öz gücünü nümayiş etdirə bilirsə, bu, o deməkdir ki, blokada vəziyyətində yaşayan Naxçıvanın müdafiəsi çox yüksək səviyyədə təşkil olunub. Yəni bu gün Əlahiddə Ümumqoşun Ordusu qədim diyarın sürətli yüksəlişinin, intibahının qarantıdır.

Dost və qardaş ölkələr Azərbaycan və Türkiyənin Silahlı Qüvvələrinin güc birliyinin göstəricisi olan hərbi təlimlərin nəticələri bu gün Azərbaycan Ordusunun Cənubi Qafqazın ən qüdrətli silahlı qüvvəsinə çevrildiyini göstərdi.

Təlimlərdə hər iki Silahlı Qüvvələrin şəxsi heyəti verilən döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetirməklə eyni zamanda iki ordu arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu nümayiş etdirdi. 1000-dən artıq şəxsi heyətin, 150-dən artıq döyüş və digər texnikanın, 50-yə yaxın artilleriya və reaktiv qurğunun, 4 atəş dəstək vertolyotunun, 6 ədəd zenit-raket qurğusunun iştirak etdiyi təlimin ssenarisinə əsasən, hava-hücumundan müdafiə bölmələri zenit-raket kompleksi vasitələri ilə dövlət sərhədini pozan düşmən təyyarələrini məhv edib. Hərbi birləşmələrimiz yaylım atəşli reaktiv silahlar vasitəsilə hücuma keçən düşmənin idarəetmə məntəqələrini, canlı qüvvəsini, döyüş texnikalarını, artilleriya və minaatan batareyalarını zərərsizləşdirib, dayaq məntəqələrini və qovşaqlarını dağıdıb. Sonra atəş dəstək və döyüş-nəqliyyat vertolyotlarının müşayiəti ilə düşmən müdafiəsinin yaxın dərinlikdəki zirehli obyektlərinə zərbələr endirilib və düşmən üzərində atəş üstünlüyü əldə edilib.

Bu məqamda Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun yüksək döyüş qabiliyyətini bir daha görmək mümkün oldu. Belə ki, təmas xətti boyu mövqelərini gücləndirən və atəş üstünlüyünə yiyələnən Əlahiddə Ümumqoşun Ordusu bundan sonra düşmənə qarşı əks-hücum əmrini yerinə yetirib.

Daha sonra Əlahiddə Ümumqoşun Ordusunun birləşmələri Türkiyə Respublikası Silahlı Qüvvələrinin gücləndirilmiş tabor taktiki qrupları ilə birlikdə düşmən müdafiəsinin ön xəttini yarıb, piyada döyüş maşınları və tanklar dərinliklərə nüfuz ediblər. Artilleriya bölmələri atəş mövqeyini dəyişməklə hücum edən bölmələrə dəstək verib, Əlahiddə Ümumqoşun Ordusunun ön dəstələri sürətli hücum təşkil edərək qarşı tərəfin mühüm rayonlarını ələ keçiriblər.

Əlahiddə Ümumqoşun Ordusunun birləşmələri və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirib, birgə hərbi təlim müvəffəqiyyətlə başa çatıb.

Sonda hərbi vertolyotlar Azərbaycan və Türkiyə bayraqlarını səmada dalğalandıraraq iki qardaş ölkənin dostluğunu, qardaşlığını bir daha nümayiş etdirib. Türk dünyasının böyük oğlu, ümummilli lider Heydər Əliyevin ***“Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam”*** fikirlərinin səsləndirilməsi isə ölkəmizin ulu öndər tərəfindən müəyyənləşdirilən siyasi-ideoloji xəttə sadiq qaldığını, bu xəttin bütün sahələr üzrə uğurla davam etdirildiyini göstərdi.

Ümummilli lider Heydər Əliyevin yolunu davam etdirmək isə quruculuq, inkişaf, yüksəliş yolunun davam etdirilməsi mənasına gəlir. Çünki dahi şəxsiyyətin yolu bizi təhlükəsiz, parlaq gələcəyə aparır. Bu yolda Vətənimizin bu günü və gələcəyi üçün həyativacib strateji məqamlar öz əksini tapıb. Bütün dövrlərdə ümummilli liderin həyata keçirdiyi dövlət siyasətinin ana xəttini ölkənin milli maraqlarından doğan strateji əhəmiyyətli məsələlərin həlli təşkil edirdi. Tarixə nəzər yetirək: ulu öndər Heydər Əliyev Moskvadan Naxçıvana qayıtdıqdan qısa müddət sonra xalqın təkidli tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi və cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı mühüm qərarlar qəbul etdi, mövcud hərbi dəstə və hissələrə vahid rəhbərliyi həyata keçirən müvafiq dövlət qurumu yaratdı. 1992-ci il sentyabrın 15-də isə Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edildi, bununla da, Azərbaycanda milli nizami ordunun yaradılmasına başlanıldı. 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər Azərbaycanda ordu quruculuğunu prioritet elan etdi, onun qayğısı ilə 1995-ci ildə muxtar respublikada yerləşən 705 saylı motoatıcı briqada motoatıcı diviziyaya çevrildi. Naxçıvanın intibah tarixinin yazılmağa başlandığı həmin ildən etibarən buradakı ordu hissələrinin təminatı yaxşılaşdırıldı, orduda xidmətə başlayan hərbi təhsilli kadrların sayı getdikcə artmağa başladı. 1998-ci ildə muxtar respublikamızın müdafiəsinin təşkilində mühüm rol oynayan 705 saylı diviziyanın bazasında ordu korpusu yaradıldı. Ümummilli liderin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə 2013-cü ilin dekabrında imzaladığı Fərmanla Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə yuxarıda adıçəkilən ordu korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradıldı. Bu gün Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu elə bir səviyyəyə yüksəlib ki, dünyanın qabaqcıl ordularından biri olan Türkiyə Silahlı Qüvvələri ilə ayaqlaşır, onunla birlikdə hərbi təlimlərdə böyük nailiyyətlər əldə edir.







Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov qardaş Türkiyə Silahlı Qüvvələrinin nümayəndələrini, əsgər və zabitləri, eləcə də təlimdə iştirakçılarını Azərbaycan-Türkiyə Silahlı Qüvvələrinin birgə təlimlərinin uğurla başa çatması münasibətilə təbrik etdikdən sonra bu həqiqəti bir daha ifadə edərək deyib: ***“Bu təlimlər müstəqil ölkələrimizin iqtisadi və hərbi qüdrətinin göstəricisidir. 20-ci yüzilliyin əvvəlində böyük Mustafa Kamal Atatürk türk ordusunu yaratmaqla qardaş Türkiyəni xilas etdi. Həmin əsrin sonunda müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev də milli ordumuzu yaratmaqla Azərbaycanı parçalanmaqdan xilas etdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu sahəsində başladığı taleyüklü işlərin və vəzifələrin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində bu gün Azərbaycan Ordusu müstəqilliyimizin təminatçısıdır. Silahlı Qüvvələrimizin Naxçıvan Muxtar Respublikası ərazisindəki birləşmə və hissələri də böyük təşkilatlanma yolu keçmişlər. Naxçıvandakı motoatıcı briqada quruculuq tədbirləri nəticəsində peşəkar hərbi heyətə və güclü maddi-texniki bazaya malik Əlahiddə Ümumqoşun Ordusu səviyyəsinə gəlib çatmışdır”.***

Azərbaycan-Türkiyə birgə hərbi təlimləri həm də iki qardaş ölkə arasındakı səmimi, qarşılıqlı, faydalı əlaqələrin nəticəsi, strateji tərəfdaşlıq münasibətlərinin təcəssümü kimi diqqəti cəlb edir. Azərbaycan ilə Türkiyənin qonşuluq, dostluq münasibətləri region ölkələri üçün nümunədir. Bu əlaqələri xarakterizə edən əsas məqam isə təmənnasız qardaş köməyi, qardaş dəstəyidir. Tarixboyu bu iki ölkə qarşılıqlı olaraq bir-birinə təmənnasız dəstək verib. Azərbaycanlılar Çanaqqalada, Türk Qurtuluş Savaşında Türkiyə uğrunda canlarını fəda ediblər, türkiyəli qardaşlarımız isə həm 1918-ci ildə, həm də ötən əsrin 90-cı illərinin əvvəllərində bizə arxa-dayaq olublar. Bu gün isə iki qardaş ölkə çiyin-çiyinə verərək çox mühüm qlobal layihələri gerçəkləşdirir, regionun təhlükəsizliyi üçün əsaslı addımlar atırlar. Region üçün ən böyük təhlükə isə, heç şübhəsiz, Ermənistanın aqressiv təcavüzkar siyasətidir.

Ali Məclisin Sədri işğalçı erməni ordusu ilə üz-üzə dayanan Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrin yeni standartlar əsasında formalaşdırılmasında Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin təmənnasız köməyini xüsusi qeyd edib, qardaş Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə dərin hörmət və ehtiramını bildirərək deyib: “Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əlaqələrimizin strateji əhəmiyyətini qiymətləndirərək demişdir: ***“Bizim gücümüz bizim birliyimizdədir. Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü Türkiyənin gücüdür”.*** Bu gün bu güc, bu birlik böyük Atatürkün vaxtı ilə “türkün qapısı” adlandırdığı Naxçıvanda özünü bütün əzəməti ilə bir daha göstərdi. Azərbaycan-Türkiyə birgə hərbi təlimləri bir tərəfdən ölkələrimiz arasında imzalanmış strateji tərəfdaşlığın, qardaşlığın göstəricisidirsə, digər tərəfdən ümummilli lider Heydər Əliyevin kəlamları ilə desək – ***iki dövlətin bir millətin*** bir ordusunun birliyinin nümunəsidir”.

Azərbaycan-Türkiyə birgə hərbi təlimləri bir daha göstərdi ki, Naxçıvandakı hərbi birləşmələrin döyüş hazırlığı yüksək səviyyədədir və şəxsi heyət istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çıxışında digər bir mühüm məqama diqqət çəkdi. Bu, hərbçilərimizdə vətənpərvərliyin və mənəvi-psixoloji hazırlığın səviyyəsinin yüksək olması ilə bağlıdır. Silahlı Qüvvələrimizin aparıcı hissəsini, heç şübhəsiz, gənclər təşkil edir. Bu mənada onların əsl vətənpərvər kimi yetişməsi və öz üzərlərinə düşən tarixi missiyanı ləyaqətlə yerinə yetirməsi müharibə şəraitində yaşayan ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyır. Sevindirici haldır ki, ordumuzun şəxsi heyəti müdafiə qüdrətini artırmaq və düşmənə həlledici zərbə endirmək üçün istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlıq baxımından daim ciddi irəliləyişlərə imza atır, bununla da, dövlətin və xalqın etimadını doğrultmağa çalışır.

*Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev də Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının yüksək səviyyədə olduğunu bildirərək demişdir:* ***“Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.***

**Rauf ƏLİYEV**

Yeni nəşrlər

# Azərbaycan tarixşünaslığına yeni töhfə

***Azərbaycan xalqı öz müstəqilliyinə qovuşduqdan sonra onun sosial-iqtisadi inkişafında xeyli irəliləyişlər baş vermiş, respublikamız regionun ən qüdrətli dövlətlərindən birinə çevrilmişdir. Ötən illər ərzində ölkədə siyasi və iqtisadi potensial möhkəmləndirilmiş, elm, təhsil və mədəniyyətin inkişafında bir sıra yeniliklərə imza atılmışdır. Bu dövr ərzində Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvanın da siyasi-iqtisadi inkişafına, onun tarixinin yazılmasına xüsusi diqqət yetirilmişdir.***




Ümummilli lider Heydər Əliyev Naxçıvan tarixinin öyrənilməsinin zəruriliyini vurğulayaraq demişdir: ***"Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsidir, gözəl bir diyarıdır və Azərbaycan ərazisində ən qədim insan məskənlərindən biridir. Naxçıvanın tarixini tarixçilər müxtəlif cür deyirlər. Biri deyir, onun üç min il tarixi var. Biri deyir, onun bizim eradan çox-çox əvvələ aid böyük tarixi var. Bu fərziyyələrin hər birinin əsası var. Sadəcə, bizim tarixçilər, arxeoloqlar gərək bundan sonra Naxçıvanın tarixi haqqında daha da geniş axtarışlar aparsınlar və Naxçıvanın tarixini ətraflı yazıb hazırlasınlar".*** Ulu öndərin bu tövsiyələrini əsas tutan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 6 avqust 2012-ci il tarixdə "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə Sərəncam imzalamışdır. "Naxçıvan tarixi" çoxcildliyinin üç cilddə hazırlanması nəzərdə tutulmuşdu. Çoxcildliyin ikinci cildi bu günlərdə işıq üzü görmüşdür. İkinci cild XVIII əsrin ortalarından başlayaraq XX əsrin 30-cu illərinin sonunadək olan böyük bir tarixi dövrü əhatə edir. "Giriş", beş fəsil, istifadə olunmuş ədəbiyyat siyahısı və illüstrativ materiallardan ibarət olan bu cilddə Naxçıvan tarixinin bu dövrü haqqında bütöv təsəvvür əldə etmək mümkündür. Burada Naxçıvan xanlığının yaranması və fəaliyyəti, Naxçıvanın Rusiya tərəfindən işğalı, XIX və XX əsrlərdə Naxçıvanın sosial-iqtisadi vəziyyəti, XX əsrin 30-cu illərində baş verən hadisələr haqqında mənbə və ədəbiyyat materialları ümumiləşdirilmişdir.

Naxçıvan xanlığı Səfəvilər imperiyasının süqutu dövründə, Çuxursəd bəylərbəyliyi ərazisində, 1747-ci ildə, Kəngərli tayfasının başçısı Heydərqulu xanın özünü xan elan etməsi ilə yaranmışdır. Xanlığın ərazisi Zəngəzur dağlarından Araz çayı vadisinə qədər olan böyük bir ərazini əhatə edirdi. Naxçıvan tarixinə dair müəyyən əsərlər yazılsa da, xanlığın tarixinə aid olan arxiv materialları yetərincə araşdırılmamışdır. Çoxcildliyin ikinci cildinin ikinci fəslində müxtəlif arxiv materiallarından istifadə olunmaqla Naxçıvan xanlığının tarixi haqqında müfəssəl məlumat verilmiş, xanlığın tarixi ilə bağlı bir sıra faktlara işıq tutulmuşdur. Mürəkkəb beynəlxalq vəziyyətdə öz müstəqilliyi uğrunda mübarizə aparan Naxçıvan xanlığı 1797-ci ilədək müstəqil olmuş, sonra isə İrandan asılı vəziyyətə düşmüşdür. Naxçıvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra həmin dövlətdən asılı olmuş və formal olaraq 1840-cı ilədək mövcud olmuşdur. İran, Osmanlı dövləti, Rusiya və Qərbi Avropa dövlətlərinin Qafqaz uğrunda mübarizə apardığı dövrdə Naxçıvan xanlarının, xüsusilə I Kalbalı xanın müstəqillik uğrunda mübarizəsi əsl qəhrəmanlıq nümunəsi idi.

Kitabın birinci fəslində xanlığın dövlət quruluşu, atributları və idarə sistemi ilə bağlı ətraflı məlumat verilmişdir. Naxçıvan xanlığının sosial-iqtisadi həyatı, şəhərləri, memarlığı, epiqrafik abidələri haqqında əsaslı məlumatlar da burada əks olunmuşdur.

Məlum olduğu kimi, XIX əsrin əvvəllərində Rusiya və İranın Qafqaz uğrunda mübarizəsi Rusiya-İran və Rusiya-Türkiyə müharibələrinə, Azərbaycanın parçalanmasına və Naxçıvan xanlığının Rusiya tərəfindən işğalına səbəb olmuşdur. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı mənbələr əsasında təhlil edilmişdir. Rusiya işğalından sonra Naxçıvan xanlarına müəyyən üstünlüklər verilsə də, inzibati-idarə sistemində yaradılan dəyişikliklər əhalinin narazılığına səbəb olmuşdu. Buna görə də çar hakimiyyəti vəziyyəti sabitləşdirmək üçün müəyyən islahatlar aparmışdır. 1840-cı il 10 aprel qanununun qüvvəyə minməsi ilə Ehsan xan və Şeyxəli bəy öz vəzifələrindən kənarlaşdırılmış, Naxçıvan Gürcü-İmeretiya quberniyasının tərkibinə, 1849-cu ildə isə yeni yaradılan İrəvan quberniyasının tərkibinə daxil edilmişdir. Ümumiyyətlə, Rusiya işğalından sonra yeni idarə üsulu yaradılarkən Azərbaycan, o cümlədən Naxçıvan tarixi torpaqları parçalanaraq digər quberniya və qəzaların tərkibinə salınmışdı ki, bu da Azərbaycanın ərazi bütövlüyünü kobud şəkildə pozmuşdu.

Araşdırmalar göstərir ki, ilhaqdan sonrakı dövrdə Naxçıvanda vəziyyət ağır olaraq qalırdı. Bu məsələlər II cildin III fəslində araşdırılaraq ümumiləşdirilmişdir. İşğaldan sonra Naxçıvanın əhalisi köçürmələr hesabına xeyli artmışdı ki, bu, Naxçıvanda yaşayan azərbaycanlı əhalinin sosial vəziyyətini xeyli pisləşdirmişdi. Müstəmləkə zülmünün getgedə ağırlaşması isə əhalinin əksəriyyətini təşkil edən kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı; buna görə də XIX əsrin 30-cu illərindən etibarən feodal-müstəmləkə zülmünə qarşı etirazlar və çıxışlar başlandı. Belə etirazların bir forması da çar hökumətinə ünvanlanmış ərizələr idi. Ərizələrdə və çar məmurlarının hökumətə verdiyi yazılı məlumatlarda Naxçıvanda yaşayan kəndlilərin dözülməz vəziyyəti öz əksini tapmışdır. Hətta vəziyyət o yerə çatmışdı ki, kəndlilər aclıqdan məhv olmaq təhlükəsi qarşısında qalmışdılar. 1880-ci ildə Cəhri kəndindən göndərilmiş teleqramda təcili yardım göstərilməzsə, əhalinin məhv olacağı göstərilirdi. Feodal-müstəmləkə zülmünə qarşı qrup halında baş verən üsyanlar çar hökumətini bəzən çətin vəziyyətə salırdı. XIX əsrin 70-90-cı illərində Əli Cəfər İbrahim oğlu, Qaçaq Nəbi və Qaçaq Məhəmməd Hüseynin başçılığı ilə üsyanlar olmuşdu.

Çar hökuməti əhalinin istismarını qaydaya salmaq üçün insanları az da olsa, maarifləndirmək məcburiyyətində qalmışdı. Bu isə müəyyən qədər maarifin və mədəniyyətin inkişafına kömək etmişdi. Naxçıvanda ilk qəza məktəbi 1837-ci ildə açılmış və bu məktəbə 20-yə qədər uşaq cəlb olunmuşdu. XIX əsrin 60-cı illərinin islahatlarından sonra Naxçıvanda təhsilin inkişafı ilə dövrün görkəmli pedaqoqları məşğul olmağa başlamışdılar. K.A.Nikitin, Əliməmməd Xəlilov, Mirzə Sadıq Qulubəyov M.T.Sidqi və digərləri də onların arasında idi. M.T.Sidqinin açdığı "Əxtər" məktəbi qısa müddət ərzində böyük şöhrət qazanmışdı. Onun yaratdığı dərsliklərdən Azərbaycanın məşhur ziyalıları bəhrələnmişlər.

XIX əsrin 70-80-ci illərində Avropa, Rusiya və Qafqazda təhsil alan azərbaycanlı ziyalılar elmi fikrin inkişafında müəyyən canlanma yaratmışdılar. Məhəmmədağa Şahtaxtlı, Fərəculla Şeyxov, Cəlil Səfiyev, Cəlil Məmmədquluzadə, Əbülqasım Sultanov belə ziyalılarımızdan idilər. Elmin və təhsilin inkişafı, öz növbəsində, ədəbiyyatın da inkişafına təkan vermiş, ədəbi məclislər yaranmışdı. "Əncüməni-şüəra" və "Məclüsi-üns" belə ədəbi məclislərdən idi.

1883-cü ildə Naxçıvanda teatrın əsası qoyulmuş, incəsənətin, dekorativ-tətbiqi sənətin inkişafında xeyli irəliləyiş olmuşdu. Bu dövrə aid epiqrafik abidələrin tədqiqi Naxçıvanın bir sıra görkəmli ictimai xadimlərinin adını ortaya çıxarmağa imkan vermişdir.

Kitabın dördüncü fəslində Naxçıvanın XX əsrin əvvəllərindəki tarixi araşdırılaraq bu dövrdəki sosial-siyasi vəziyyət, ermənilərin Naxçıvan əhalisinə qarşı törətdikləri qırğınlar, Araz-Türk Cümhuriyyətinin yaranması və Naxçıvan tarixinin digər məsələləri geniş təhlil və izah edilmişdir. Birinci rus inqilabı zamanı əhalini inqilabdan yayındırmaq üçün milli qırğınlara rəvac verən çar hökumətinin siyasəti Azərbaycan əhalisi, xüsusilə Naxçıvan üçün fəlakətli hadisələrlə nəticələnmiş, minlərlə soydaşımız yurd-yuvasından didərgin düşmüş, erməni quldurları tərəfindən öldürülmüşdür. Həmin dövrdə Naxçıvanda demokratik hərəkat, Naxçıvan Milli Komitəsinin silahlı erməni quldurlarına qarşı mübarizəsi, Birinci Dünya müharibəsi illərində Naxçıvanda baş verən hadisələr, Araz-Türk Cümhuriyyətinin yaranması və onun Naxçıvan ərazisinin erməni daşnaklarının əlinə keçməsinə qarşı mübarizəsi geniş şəkildə araşdırılmışdır.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan etsə də, yaranmış ziddiyyətli beynəlxalq şərait üzündən Naxçıvan çox çətin vəziyyətdə qalmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyəti çətinliklərə baxmayaraq, Naxçıvandakı vəziyyəti dəfələrlə müzakirə etmiş və Naxçıvana köməklik göstərmişdi. Bu zaman Naxçıvandakı vəziyyəti idarə etmək və ona nəzarət üçün Naxçıvan general-qubernatorluğu yaradılmışdı. Naxçıvandakı ictimai-siyasi vəziyyətin sabitləşməsində və erməni təcavüzünə qarşı mübarizədə Mirabbas Mirbağırzadə, Bəhram xan Naxçıvanski, Məhəmməd bəy Təkinski və Behbudağa Şahtaxtinskinin böyük rolu olmuşdu.

XX əsrin əvvəllərində Naxçıvanda kəskin sosial-siyasi şəraitin olmasına baxmayaraq, elm, ədəbiyyat və mədəniyyətin inkişafında müəyyən nailiyyətlər əldə olunmuşdu. Bu dövrdə Naxçıvan xalqımıza Məhəmmədağa Şahtaxtlı kimi publisist, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi kimi yazıçılar, Məhəmməd Tağı Sidqi kimi görkəmli maarifçi, Bəhruz Kəngərli kimi rəssam bəxş etmişdi.

Çoxcildliyin ikinci cildinin beşinci fəslində Naxçıvanın 20-30-cu illərdəki tarixi araşdırılmış, bu dövrdə Naxçıvanda baş verən ictimai-siyasi hadisələr, Naxçıvanda Sovet hakimiyyətinin qurulması və onun doğurduğu nəticələr tədqiq edilmişdir. Bu dövrdə Naxçıvanın əldə etdiyi ən böyük nailiyyət muxtariyyət statusunun qazanılması idi. Həmin fəsildə Naxçıvanın XX əsrin 20-30-cu illərindəki tarixi obyektiv şəkildə araşdırılmış, hadisələr milli konsepsiya baxımından dəyərləndirilmişdir. Həmin dövrdə həyata keçirilən birtərəfli sənayeləşmə, kollektivləşmə və siyasi repressiyalar Naxçıvandan da yan keçməmişdir. Naxçıvanın bir çox görkəmli ictimai və siyasi xadimləri, o cümlədən general Cəmşid Naxçıvanski, general Qanbay Vəzirov, şair Əli Səbri, səhnə ustası Kazım Kazımzadə repressiyanın qurbanları olmuşlar.

Fəslin sonunda 20-30-cu illərdə Naxçıvanda mədəni quruculuq, elm, təhsil və mədəniyyət sahələrində əldə edilən nailiyyətlərdən bəhs olunur.

*Ümumiyyətlə, çoxcildliyin ikinci cildini Azərbaycan tarixşünaslığına və Naxçıvanşünaslığa böyük töhfə hesab etmək olar.*

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

"Naxçıvan tarixi"ndən

# Naxçıvan qədim dövrdə

**Qədim Daş dövrü.** Naxçıvan ərazisində Daş dövrü yaxşı öyrənilmədiyindən onun bütün inkişaf mərhələlərini ardıcıllıqla izləmək mümkün olmamışdır. Lakin Naxçıvan Muxtar Respublikasının əlverişli təbii-coğrafi şəraiti qədim Daş dövründən insanların burada məskən salmasına şərait yaratmışdır. Naxçıvandakı bir sıra karst mağaralarında, o cümlədən Qara Zağa, Damlama, Qazma və digərlərində arxeoloji araşdırmalar aparılmışdır.

Arxeoloji araşdırmalar zamanı Kəngərli rayonunda Şahtaxtı yaşayış yerində və Şərur rayonunda Ovçular təpəsi yaşayış yerində Daş dövrünə aid alətlər aşkar olunmuşdur. Bu alətlərin üçü xüsusilə diqqəti cəlb edir. Alətlər çay daşından hazırlanmışdır. Onların biri bir tərəfdən ağız kənarından mərkəzə doğru qəlpələnmə üsulu ilə hazırlanmışdır. Eyni texnika ilə hazırlanan digər daş alətlər hər iki üzdən qəlpələnmişdir. Bu alətlər Naxçıvanda insanların qədim Daş dövründən məskunlaşdığını təsdiq edir.



*Şərur rayonunun Tənənəm kəndində Qazma mağarası*

Qazma mağarasındakı tədqiqatlar xüsusilə dəyərli elmi nəticələr vermişdir. Mağarada qalınlığı 3 metr olan altı mədəni təbəqə aşkar olunmuşdur. Bu təbəqələrin üçündən – IV, V, VI təbəqələrdən osteoloji materiallar, ocaq yerləri və Mustye mədəniyyətinə aid daş alətlər aşkar edilmişdir. Altıncı təbəqə maddi-mədəniyyət qalıqları ilə xüsusilə zəngin olmuşdur. Bu təbəqədə aşkar olunan ocaqların ağzı mağaranın içərisinə yönəldilmiş vəziyyətdə olmuşdur. Əmək alətlərinin hazırlanmasında, əsasən, obsidian (92,7%), qismən isə çaxmaqdaşı (21 ədəd) və daşlı şistdən (5 ədəd) istifadə edilmişdir. Yerli daş növlərindən hazırlanan əmək alətləri, əsasən, itiuclulardan və qaşovlardan ibarətdir. Xeyli miqdarda istehsal tullantısının – nukleus, qəlpə, obsidian və çaxmaqdaşı parçalarının aşkar edilməsi göstərir ki, daşın ilkin emalı mağarada olmuşdur.

Abidənin dördüncü təbəqəsindən daş alətlərlə bərabər, sümük alətlər də tapılmışdır. Biz, bıçaq, kəsici və oyuculardan ibarət olan bu alətlər heyvanların parçalanmış lülə sümüklərindən hazırlanmışdır.

Qazma mağarasından aşkar edilmiş əmək alətləri Cənubi Qafqaz və Yaxın Şərqin Mustye dövrünə aid həmdövr abidələrindən aşkar olunmuş əmək alətləri ilə bənzərdir. Arxeoloji materialların öyrənilməsi göstərir ki, mağarada məskən salan qədim insanların əsas məşğuliyyəti ovçuluq olmuş, yığıcılıq təsərrüfatda ikinci dərəcəli rol oynamışdır. Dördüncü təbəqənin arxeoloji materiallarında Üst Paleolit dövrü üçün xarakterik əlamətlərin izlənməsi qədim Qazma sakinlərinin qəbilə icmalarının yaranması ərəfəsində olduğunu göstərir.

Neolit dövrü Naxçıvanda e.ə. VII minilliyi əhatə edir. Araşdırmalar zamanı keramikasız Neolitə aid maddi-mədəniyyət qalıqları aşkar edilməmişdir. Naxçıvanın Neolit mədəniyyəti Yaxın Şərq ölkələrinin həmdövr mədəniyyəti ilə bir sıra ortaq xüsusiyyətlərə malik olmaqla, yalnız keramikalı Neolit mərhələsini əks etdirir. I Kültəpənin "1a" təbəqəsindən əldə olunan maddi-mədəniyyət qalıqları Neolit dövrünün son mərhələsini izləməyə imkan vermişdir. Bu dövrdə daşın işlənmə texnikası inkişaf etmiş, qədim insanlar daşı cilalamağı və deşməyi öyrənmişlər. İnsanlar oturaq həyata keçmiş, istehsal təsərrüfatını mənimsəmişlər. I Kültəpədən aşkar olunan tikinti qalıqları Neolit dövründə insanların dördkünc formalı evlərdə yaşadığını, başlıca olaraq, əkinçiliklə və maldarlıqla məşğul olduğunu göstərir. Qəbilənin təsərrüfat ehtiyaclarının ödənilməsində ovçuluğun da müəyyən rolu olmuşdur. Yaşayış binalarının döşəməsi saman qatılmış gillə suvanmış, evlərin qızdırılmasında dairəvi formalı ocaqlardan istifadə edilmişdir. Bəzi evlərin döşəməsində qamışdan toxunmuş həsir qalıqları saxlanmışdır. Bu dövrdə yaşayış yerində və evlərin döşəməsində dəfnetmə adəti mövcud olmuşdur. Dəfnlər tək və cüt olmuş, qəbirlərə əmək alətləri və bəzək əşyaları qoyulmuşdur. Skeletlərin bəzisi oxra ilə boyanmışdır.

I Kültəpənin "1a" təbəqəsindən aşkar olunmuş oraq dişləri, obsidian plastinkalar, maral buynuzundan hazırlanmış oraq çərçivəsi əkinçilik mədəniyyətinin xeyli inkişaf etdiyini göstərir. Əkinçilik və maldarlıqla yanaşı, ev sənətkarlığının digər sahələri, o cümlədən toxuculuq, dulusçuluq, daş və sümükişləmə də inkişaf etmişdir.

***Mənbə: "Naxçıvan tarixi" çoxcildliyinin I cildi***
***(ardı var)***

## Bioloji təbabət mövzusunda elmi-praktik seminar

*Mayın 19-da Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Bakı şəhərində fəaliyyət göstərən "Bioloji təbabət" klinikasının təşkilatçılığı ilə Şərur Rayon Mərkəzi Xəstəxanasında "Bioloji təbabətin aktual problemləri" mövzusunda elmi-praktik seminar keçirilib.*

Şərur, Kəngərli və Sədərək rayonlarındakı mərkəzi xəstəxanaların həkimlərinin iştirak etdikləri tədbiri Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayev açaraq bildirib ki, səhiyyə sisteminin günün tələblərinə uyğunlaşdırılması, müasir tibb strukturunun yaradılması muxtar respublikada həyata keçirilən sosial islahatların mühüm tərkib hissəsidir. Bunun nəticəsidir ki, istər Naxçıvan şəhərində, istərsə də ən ucqar dağ kəndlərində əhaliyə nümunəvi tibbi xidmət göstərilir. Tibb müəssisələri üçün yeni binalar tikilir, səhiyyə ocaqları müasir tibbi avadanlıqlarla təchiz edilir. Həmçinin həkimlərin peşə vərdişlərinin artırılması məqsədilə seminar və konfransların keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu gün keçirilən növbəti seminar da həmin tədbirlərin davamıdır.

"Bioloji təbabət" klinikasının nümayəndəsi, tibb üzrə elmlər doktoru, professor Fikriyyə İbrahimova çıxış edərək bildirib ki, 2009-cu ildən fəaliyyət göstərən bu müəssisə ölkəmizdə bioloji üsullarla müalicənin tətbiqini qarşısına məqsəd qoyub. Bioloji təbabət orqanizmin özünüidarə və müdafiə sistemlərinin pozulmuş funksiyalarını bərpa edən, baş verən həmin xəstəliklərin səbəblərinin aradan qaldırılmasına yönəldilən müasir müalicə metodudur. Bu metod digər müalicə metodlarından fərqli olaraq, xəstəliyi deyil, xəstəni müalicə edir. Yəni bu müalicədə yalnız təbii tərkibli dərman preparatlarından istifadə olunur; müalicə zamanı digər orqan və sistemlər zədələnmir.

Tədbirdə slaydlar nümayiş olunub, dinləyicilərin sualları cavablandırılıb, onlara bukletlər paylanıb.

Elmi-praktik seminar digər rayonlarda da keçiriləcək.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

### Həkim məsləhəti

## Övladlarımızı mövsümlə gələn xəstəliklərdən necə qorumalıyıq?

***Yaz fəsli gəlişi ilə əhval-ruhiyyəmizi yüksəltməklə yanaşı, müəyyən mövsümi xəstəlikləri də özü ilə gətirir. Bu xəstəliklərin səbəbləri, ilk növbədə, fəsil dəyişkənliyi ilə bağlı orqanizmdə baş verən proseslər və bəzi xarici amillərlə izah olunur. Xüsusən immun sistemi zəif olan insanlar bu aylarda tez-tez xəstəliklərə tutulurlar. Daha çox uşaq və yaşlılarda özünü göstərən bu tip xəstəliklərə el arasında mövsümi xəstəliklər deyilir.***

Bəs bu xəstəliklər necə yaranır? Bu xəstəliklərdən uşaqlarımızı necə qorumalıyıq? Suallarımıza cavab tapmaq üçün Nehrəm Kənd Sahə Xəstəxanasının baş həkimi, pediatr Hüseyn Niftəliyevə müraciət etdik. Həkimin çox vaxtını almadan gəlişimizin səbəbini söyləyib suallarımızı ünvanlayırıq.

Son zamanlar uşaqların tez-tez xəstəliklərə yoluxduğunu bildirən Hüseyn Niftəliyev bunu mövsümlə əlaqələndirdi, yaz-yay fəsillərində körpə uşaqlarda ən çox rast gələnən problemlərin vitamin çatışmazlığı və allergik xəstəliklər olduğunu dedi. Həkimin sözlərinə görə, tibdə "polinoz" adlandırılan bu fəsadlar, əsasən, uşaqları əhatə edir: "Ağacların yarpaqlaması, çiçək açması, çiçək tozunun olması ilə bağlı uşaqlar arasında allergik xəstəliklər tez-tez baş verir. Bu vaxt uşaqlarda asqırmalar, gözdə və boğazda qaşınma kimi simptomlar meydana çıxır. Əgər bunlar müalicə olunmasa, xəstəlik bronxial-astmaya keçə bilər".

Hüseyn həkim bildirir ki, bir yaşadək uşaqlarda qida allergiyasını yaradan əsas allergenlərdən biri də inək südü zülallarıdır: "Əgər uşaq ana südü ilə qidalanırsa, ana hipoallergen pəhrizə riayət etməli, qida rasionundan soğan, sarımsaq, turp, balıq, göbələk bulyonları və ədviyyatlar çıxarılmalıdır. Süd məhsullarından xama, qatıq və meyvələrdən istifadə olunmalıdır. Bundan əlavə, genetik meyillilik, mədə-bağırsaq sisteminin pozuntusu, keçirilmiş kəskin bağırsaq infeksiyası da uşaqlarda erkən dövrdə qida allergiyasının inkişafına səbəb olan amillərdəndir".

Hüseyn Niftəliyev deyir ki, yuxarıda sadalanan xəstəlikləri nəzərə almasaq, yaz və yay fəsillərində rast gəlinən xüsusi xəstəlik qrupu yoxdur. Hazırda muxtar respublikada uşaqlar arasında ciddi epidemiya təhlükəsi də müşahidə olunmur: "Uşaqlar ətraf aləmlə çox təmasda olduqları üçün onlarda tənəffüs yolları və tənəffüs sistemi fəsadları baş verə bilər. Bu ən çox rast gələnən problemlərdəndir. İkinci yerdə yeni doğulan körpələrdə müşahidə olunan xəstəliklər, sonra isə mədə-bağırsaq və yoluxucu xəstəliklər durur".

"Soyuq qış ayları artıq arxada qalsa da, qrip və soyuqdəyməyə yaxalanmaq riski bu aylarda daha da artır. Buna səbəb yüksək rütubət, dəyişkən hava şəraiti və zəif immunitetdir", – deyən Hüseyn Niftəliyev əlavə edir ki, bütün bunlar xəstə insanla hətta qısamüddətli əlaqəni də yoluxma təhlükəsinə çevirir. Təəssüf ki, yaz, sadəcə, təbiətin oyanışı demək deyil, həm də bronxial və immunal xarakterli xəstəliklərin inkişafı üçün "ideal şərait" yaradan fəsildir. Xəstəliyin qarşısını almaq üçün görülən profilaktik tədbirlərə vitaminlərlə bol olan balanslaşdırılmış qidalanma və virus əleyhinə preparatların qəbulunu aid etmək olar. Şəxsi gigiyenanı da unutmaq olmaz: əllər tez-tez yuyulmalı, mənzilin havası dəyişilməli və evdə nəmləndirici təmizlik işləri aparılmalıdır.

Qida allergiyasını qidanın tərkibində olan qlikoprotein zülalları yaratdığını deyən Hüseyn Niftəliyev qida allergenləri məhsullarının kulinariyada işlədilməsi zamanı antigen xüsusiyyətlərini dəyişmək qabiliyyətinə malik olduğunu bildirdi: "Qızdırıldıqda zülallar təbii tərkibini itirir. Bu zaman qida allergenlərinin bir qrupu allergenlik xüsusiyyətini itirir, digər qrupu isə, əksinə, allergenlik xüsusiyyəti qazanır. Meyvə və tərəvəzlərin tam yetişməmiş olması da allergenliyi kəskin artırır. Bəzi hallarda valideynlər bu cür xəstəliklərlə mübarizəni ev şəraitində və həkim məsləhəti olmadan aparırlar. Bu hallar çox pis fəsadlar doğura bilər. Uşaqlarımızın səhhətində yarana biləcək hər cür xəstəlik üçün mütləq həkimə müraciət etmək lazımdır. Qusma və ishal olan uşaqlara çay, su verilməsi xeyli azaldılmalı və mütləq həkimə müraciət edilməlidir".

Həkim qeyd edir ki, valideynlər iqlimin dəyişilməsini nəzərə almalı, körpə uşaqlarını soyuqdan qorumalı, nisbətən böyük uşaqlarını isə havanın temperaturuna uyğun şəkildə geyindirməlidirlər. Uşaqların peyvəndləri vaxtında vurdurulmalı, vitamin ehtiyacını aradan qaldırmaq üçün həkimə müraciət olunmalıdır. Bu fəsildə uşaqları günün altında çox saxlamaq olmaz. Hava ilə təmas üçün səhər və ya axşam vaxtı daha uyğundur.

Sonda müsahibim onu da dedi ki, hər dərman preparatı müəyyən bir xəstəlik üçündür, universal deyil. Bir dərmanın müəyyən olunmuş xəstəliyə faydası vardırsa, onun başqa bir orqana ciddi zərərvermə təhlükəsi də var. Məsələn, hansısa bir xəstənin mədəsində ağrı var və həmin xəstə mədəqoruyucu dərman əvəzinə, ağrıkəsici dərmandan istifadə edərsə, bu zaman xəstədə mədə qanaması, deşilməsi və digər fəsadlar yarana bilər. Mütləq həkim məsləhəti ilə dərmandan istifadə etmək lazımdır. Bu deyilənlər adi ağrıkəsici dərmandan tutmuş allergiya əleyhinə olan dərmanlara qədər hamısına aiddir, hətta vitaminlər belə, həkimin rəyi olmadan istifadə olunmamalıdır. Çünki fərdi olaraq bəzi uşaqların vitaminlərə qarşı allergiyası ola bilər. Hər bir dərman vasitəsi yalnız müayinədən sonra qəbul edilməlidir. Əks halda insan sağlamlığından ola bilər. Bir həkim olaraq valideynlərə, xüsusən analara onu deyərdim ki, özlərinin və övladlarının həyatlarını riskə atmasınlar. Bunlardan əlavə, ailə daxilində rast gələnən bir xəstəlik hər kəsə aid olmaya bilər. Məsələn, ailənin böyük uşağına yazılan dərman vasitəsini kiçik uşağa da vermək tamamilə səhvdir və təhlükəlidir. Bəzən valideynlər düşünürlər ki, ağrıkəsici, vitamin və sair dərmandan hər iki uşaq istifadə edə bilər. Qətiyyən düzgün deyil! Uşaqlarda ayrı-ayrı xəstəliklər varsa, bunların müalicəsi də fərqlidir.

**Arzu ABDULLAYEV**

## Elan

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu gənclər arasında ***"Naxçıvan: müstəqillik illərində"*** yaradıcılıq müsabiqəsi elan edir. Müsabiqə aşağıdakı istiqamətlər üzrə keçirilir:

- *publisistika və teleradio materialları;*
- *rəsm əsərləri;*
- *ədəbi nümunələr (roman, povest, hekayə, poema, şeir, pyes, oçerk və sair);*
- *musiqi əsərləri;*
- *elmi-tədqiqat işi (araşdırma, məqalə, ixtira və sair).*

***Müsabiqənin keçirilməsində məqsəd***

Müsabiqənin keçirilməsində məqsəd Naxçıvan Muxtar Respublikasının inkişaf tarixinə nəzər salmaq, gənclərin bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək vermək, onların bacarıqlarını və ideyalarını üzə çıxarmaq, ictimaiyyəti məlumatlandırmaq, qədim və zəngin Naxçıvan tarixinin müstəqillik dövründəki inkişafını gənclərin gözü ilə təqdim etməkdir.

***Müsabiqədə iştirak***

Yaradıcılıq qabiliyyəti olan hər bir gənc müsabiqədə iştirak edə bilər.

***Müsabiqəyə təqdim olunmuş materialların qiymətləndirmə meyarları***

- işlərin bədii səviyyəsi və keyfiyyəti;
- müsabiqənin şərtlərinə cavab verməsi;
- ideyanın orijinallığı;
- savadlı kompozisiya həlli;
- işin təsiredici qüvvəyə malik olması və mövzunun asan qavranılması;
- yaradıcı yanaşma.

Müsabiqəyə təqdim olunan materiallar aşağıdakı tələblərə cavab verməlidir:

***Publisistika və teleradio materialları***

Müsabiqəyə təqdim olunan publisistik materiallar "Şərq qapısı", şəhər və rayon qəzetlərində dərc edilməli, teleradio verilişləri Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən televiziya və radiolarda efirə yayımlanmalıdır. Publisistika və teleradio materiallarında ***"Naxçıvan: müstəqillik illərində" gənclər arasında yaradıcılıq müsabiqəsinə təqdim olunmaq üçün-dür"*** qeydi göstərilməlidir.

Müsabiqəyə təqdim olunan məqalələr A4 kağız formatında (dərc olunduğu qəzetin nüsxəsi ilə birlikdə), teleradio materialları isə elektron daşıyıcılarda (CD və ya DVD-də) təqdim olunmalıdır.

***Rəsm əsəri***

Müsabiqəyə təqdim edilən rəsm əsərləri rəngkarlığın və qrafikanın müxtəlif texnikalarından istifadə olunmaqla (sulu boya, yağlı boya, quaş, qara qələm, qarışıq texnika və sair) və istənilən material üzərində işlənə bilər. Müsabiqəyə təqdim olunan rəsm əsərləri minimum 50x60 sm ölçüdə olmalıdır.

***Ədəbi nümunələr***

Müsabiqəyə təqdim olunan nəsr, dram nümunələri və şeirlər üçün həcm məhdudiyyəti yoxdur.

***Musiqi əsəri***

Musiqi əsərlərinin (mahnı, xor, orkestr və sair) not yazısı çap olunmuş, səsləndirilmiş (ifa olunmuş) variantı isə elektron daşıyıcılarda (CD və ya DVD) müsabiqəyə təqdim olunmalıdır.

***Elmi-tədqiqat işi***

Müsabiqəyə təqdim ediləcək elmi-tədqiqat işlərində Naxçıvan Muxtar Respublikasının müstəqillik dövründəki inkişafı təhlil olunmalıdır. Elmi işlər iqtisadiyyat, təhsil, mədəniyyət, ədəbiyyat, tarix, ekologiya və digər sahələrdən birini əhatə etməlidir. Müsabiqəyə əvvəllər heç bir yerdə nəşr olunmamış orijinal tədqiqat əsərləri təqdim olunmalıdır. Ədəbiyyat siyahısı tədqiqat işinin sonunda ayrı bir səhifədə göstərilməlidir. Ardıcıllıq əlifba siyahısına görə olmalıdır.

Əsərlər elektron daşıyıcılarda (CD və ya DVD) və çap olunmuş şəkildə müəllif haqqında bioqrafik məlumatla birlikdə təqdim olunmalıdır.

Müsabiqəyə təqdim olunmuş əsərlər geri qaytarılmır.

***Müsabiqənin keçirilmə vaxtı***

Müsabiqə 2015-ci il mayın 30-dan 2015-ci il noyabrın 30-dək keçiriləcəkdir. Yaradıcılıq müsabiqəsində iştirak etmək istəyən gənclər hazırladıqları işləri 2015-ci il noyabrın 30-dək şəxsiyyət vəsiqələrinin surəti ilə birlikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fonduna təqdim etməlidirlər.

Qaliblər 2015-ci ilin dekabrında elan olunacaq və mükafatlandırılacaqlar.

***Müsabiqənin mükafat fondu aşağıdakı kimidir***

*Birinci yer (1 nəfər) – 1500 AZN*
*İkinci yer (2 nəfər) – 1000 AZN*
*Üçüncü yer (5 nəfər) – 500 AZN*
*Həvəsləndirici yer (5 nəfər) – qiymətli hədiyyələr.*

***Ünvan:*** Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, Gənclər Mərkəzi.
**Əlaqə telefonu:** (036) 544-18-43

## Fermer və sahibkarların nəzərinə!

"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən aşağıda göstərilən taxılbiçən kombaynların lizinq yolu ilə 5 il müddətinə satışı təşkil olunur.

| № | Adı və markası | Qiyməti |
|---|---|---|
| 1 | Kombayn Niva Effekt | 15000.00 |
| 2 | Kombayn Niva SK-5 | 5000.00 |

### *İtmişdir*

Şərur rayonunun Qarxun kəndində yaşamış Zeynalov Həsən Hümbət oğlunun adına olan JN-253A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Didivar kəndində yaşayan Xəlilov Əsgər Heydər oğlunun adına olan 18 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Yurdçu kənd sakini Əliyev Ələsgər Yavər oğlunun adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 24.01.2012-ci il tarixdə verilmiş 04 inventar nömrəli texniki pasport və MH-23947 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 397